**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

4 iyul 2026-cı il | №24 (9177) | www.muallim.edu.az | muallim@media.edu.az

# TÜRK DÜNYASI AİLƏSİ ƏSRİN NÜFUZLU GEOSİYASİ GÜC MƏRKƏZLƏRİNDƏN BİRİ OLMAQ YOLUNDADIR




## Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına müraciət ünvanlayıb

**Türk dünyasının ortaq mənəvi dəyərlərinin - dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı.**

Bax səh. 2

## “Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi”



## Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir



Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

Bax səh. 3

## Hər bir uşaq bir möcüzə, bir xəzinədir



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın ümumtəhsil müəssisələrinin müəllimlərinə həsr olunmuş Xeyirxahlıq Festivalı keçirilib.

IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və “ThinkIn” təşkilatının əməkdaşlığı çərçivəsində təşkil olunan tədbirdə ölkənin 290 ümumtəhsil müəssisəsindən 1000-ə yaxın müəllim iştirak edib.

Bax səh. 4

## Leyla Əliyeva Yevlaxda məktəb binasının açılışında iştirak edib



İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev Leyla Əliyevaya məktəbin tarixi, burada yaradılmış şərait və tədris imkanları barədə məlumat verib.

Bax səh. 4

## ADA Universitetində 9-cu Beynəlxalq Təhsil Konfransı

Bax səh. 6

## Milli Aviasiya Akademiyasında “Məzun günü”

Bax səh. 6

## “Geriyə baxanda peşman deyiləm”

Bax səh. 7

## Olimpiadanın qızıl medalçısı

Bax səh. 8

# Türk dünyası ailəsi əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır



## Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına müraciət ünvanlayıb

Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına müraciət ünvanlayıb.

Müraciətdə deyilir:

"Sizi Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar Türk Dünyası Həftəsinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır.

Paytaxtımızın memarlıq incilərindən sayılan əzəmətli İsmailiyyə Sarayında dünya türkologiyasının görkəmli simalarını və məşhur tədqiqatçı alimlərini yüz il əvvəl bir araya toplamış Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mövcud şəraitdə mədəni inteqrasiyasının məfkurə olaraq təşəkkül tapması baxımından müstəsna əhəmiyyət daşıyır.

Türk dünyasının ortaq mənəvi dəyərlərinin - dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı.

Əfsuslar olsun ki, Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçirilməsinin qarşısı az sonra sovet totalitar idarə üsulu tərəfindən düşünülmüş formada süni manelərlə alındı. Qurultay nümayəndələrinin əksəriyyətini isə məqsədli şəkildə 1930-cu illərdə amansız repressiyalara məruz qoydular. Onların xatirəsini bu gün də ehtiramla yad edirik.

Qurultayın obyektiv zərurətdən irəli gələn və bütün türk aləminin tərəqqisini nəzərdə tutan taleyüklü qərarları elmi-mədəni həmrəyliyimizin qorunub saxlanılmasında mühüm platforma rolunu oynamış, sərt sınaqlara tab gətirərək, 70 illik kommunist rejiminin süqutundan sonra milli müstəqillik əldə edən türk xalqlarının mədəni-mənəvi dirçəliş yollarını yenidən işıqlandırmışdır.

Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır.

Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik.

İnanıram ki, Türk Dünyası Həftəsi müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan

### Azərbaycan türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir

"1926-cı ildə Birinci Türkoloji Qurultayın məhz Bakıda keçirildiyi kimi, onun 100 illiyinə həsr olunmuş tədbirin də Azərbaycan paytaxtında təşkil olunması təsadüfi deyil. Türk dünyasının birlik və həmrəyliyinin ən güclü müdafiəçilərindən olan Azərbaycan bu gün də türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev

### I Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və ictimai həyatının inkişafında yeni bir dövrün başlanğıcını qoyan tarixi hadisə kimi yadda qalıb

"Birinci Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və ictimai həyatının inkişafında yeni bir dövrün başlanğıcını qoyan tarixi hadisə kimi yadda qalıb... Türk dünyası nümayəndələri ilə birlikdə bu forumun keçirilməsini türk xalqlarını birləşdirən ortaq dəyərlərə göstərilən yüksək ehtiramın təzahürü kimi qiymətləndiririk".

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev

### Qurultay qardaş ölkələrin sarsılmaz birliyinin göstəricisinə çevrilib

"Azərbaycan bu gün Türk dünyasında xüsusi yer tutur. Birinci Türkoloji Qurultay bütün Türk dünyası üçün əhəmiyyətli tarixi hadisə idi... Qurultay qardaş ölkələrin sarsılmaz birliyinin göstəricisinə çevrilib. Həmin qurultayda irəli sürülən ideyalar bu gün də aktuallığını itirməyib".

Qırğızıstan Prezidenti Sadır Japarov

### Birinci Türkoloji Qurultay türk dünyasının intellektual dirçəlişinin əsasını qoyan mühüm tarixi hadisə olub

"Birinci Türkoloji Qurultay "Dildə, fikirdə, işdə birlik" şüarı altında türk xalqlarının gələcəyini müəyyənləşdirən, türk dünyasının intellektual dirçəlişinin əsasını qoyan mühüm tarixi hadisə olub. Qurultayın 100 illiyi türk dünyasının intellektual, mədəni və siyasi inteqrasiyasının əsrlik yolunun mühüm mərhələsi kimi dəyərləndirilə bilər".

# "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi"



## Emin Əmrullayev Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin açılış mərasimində iştirak edib

İyunun 29-da Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsi başlanıb. Elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.

Heydər Əliyev Mərkəzində həftənin əsas tədbiri — "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqresin rəsmi açılış mərasimi keçirilib. Konqresdə türk respublikaları daxil olmaqla ümumilikdə 20 ölkədən rəsmilər, müxtəlif elmi mərkəzlərdən 126 türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr iştirak ediblər.

Əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına müraciətini səsləndirib.

Açılış mərasimində Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayev Qazaxıstanın dövlət başçısı Kasım-Jomart Tokayevin, Qırğızıstanın mədəniyyət, informasiya və gənclər siyasəti naziri Mirbek Mambetaliyev Prezident Sadır Japarovun, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Gökhan Yazqı Prezident Rəcəb Tayyib Ərdoğanın, Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov Prezident Şavkat Mirziyoyevin müraciətlərini diqqətə çatdırıblar.






Sonra Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Azərbaycan Birinci Türkoloji Qurultayın irsinə hər zaman böyük diqqət və ehtiramla yanaşır, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və müvafiq Sərəncamı ilə bu yubiley dövlət səviyyəsində qeyd olunur. Bu, Azərbaycan dövlətinin Türk dünyasının ortaq elmi və mədəni irsinə verdiyi yüksək dəyərin bariz nümunəsidir.

Adil Kərimli, həmçinin bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin tədbirləri Qarabağda - Şuşa, Xankəndi və Ağdam şəhərlərində də davam edəcək. Nazir vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarımızda yenidən qurulan hər bir şəhər, bərpa olunan hər bir abidə və yenidən həyat qazanmış hər bir məkan Azərbaycanın dirçəlişini və bütövlükdə Türk dünyasının həmrəylik ruhunu ifadə edir.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev çıxışında Birinci Türkoloji Qurultayın ideyalarının bu gün də Türk dünyasının inteqrasiyası və əməkdaşlığı üçün mühüm əhəmiyyət daşıdığını deyib. Baş katib əlavə edib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirlər ortaq irsin daha dərindən öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına və Türk dünyasında inteqrasiya prosesinin daha da güclənməsinə töhfə verəcək.

Milli Məclis sədrinin müavini Rafael Hüseynov çıxışında Birinci Türkoloji Qurultayın Türk dünyasının elmi, mədəni və siyasi tarixində mühüm dönüş nöqtəsi olduğunu bildirib. O qeyd edib ki, bu qurultay yalnız elmi toplantı deyil, həm də türk xalqlarının ortaq kimliyini və birliyini nümayiş etdirən tarixi hadisə idi. Akademik vurğulayıb ki, türk xalqlarının birliyi ideyası əsrlər boyu formalaşıb və bu yolda böyük maarifçilər, alimlər və ziyalılar mühüm xidmətlər göstəriblər. Müasir dövrdə türk dövlətləri arasında əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmlənməsi Birinci Türkoloji Qurultayın irsinin davamı kimi qiymətləndirilməlidir.

Çıxışlardan sonra Türk dünyasının tanınmış incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Beynəlxalq konqres öz işini plenar iclas və panel sessiyalarla davam etdirib.

Qeyd edək ki, iyulun 3-dək davam edəcək "Türk Dünyası Həftəsi" Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə gerçəkləşir.

# Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir

## Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib

İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib.
AZƏRTAC xəbər verir ki, iclasda Birinci vitse-prezident Mehriban Əliyeva çıxış etdi.



### Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Hörmətli həmkarlar.

Bu gün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasını keçiririk. Cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilmişdir və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənmişdir. Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır.

Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq.

> **Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.**

Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

Bugünkü iclasda müşavirədən keçən son aylar ərzində aparılan işlər, əldə edilən nəticələr haqqında Rəşad Nəbiyev məruzə edəcək.



***

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Birinci vitse-prezidentə məlumat verdi. Qeyd etdi ki, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində görülən işlərə toxunan nazir 40 dövlət qurumu ilə Yol xəritələrinin hazırlandığını, onlardan 13-nün artıq təsdiqləndiyini və ya təsdiq mərhələsində olduğunu dedi.

Rəşad Nəbiyev Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verdi, dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlərin davam etdirildiyini vurğuladı. "Mygov" platformasının xidmət dairəsinin genişləndirildiyini, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdığını deyən nazir artıq bir neçə tətbiqin platformaya inteqrasiya olunduğunu, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə veriləcəyini bildirdi.



Rəqəmsal inkişaf və nəqliyyat naziri fəaliyyət planının əsas prioritetlərindən birinin süni intellekt olduğunu vurğulayaraq, "mygov" və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqinin genişləndirildiyini, virtual vətəndaş köməkçisinin istifadəyə verildiyini dedi. Rəşad Nəbiyev innovasiya ekosisteminin inkişafı məsələlərinə toxundu, texnoloji suverenliyi gücləndirən sahələrdə fəaliyyət göstərən şirkətləri bir araya gətirmək məqsədilə Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanıldığını vurğuladı və kibertəhlükəsizlik sahəsində görülən işlərdən danışdı. Qeyd etdi ki, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir.

***

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov rəqəmsal sahədə qanunvericilik üzrə islahatlar barədə Birinci vitse-prezidentə məlumat verdi. Şahmar Mövsümov qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi rəqəmsal transformasiya ardıcıl şəkildə həyata keçirilir. Dövlətimizin başçısının bu ilin fevralında imzaladığı Fərmanla Rəqəmsal İnkişaf Şurasının yaradıldığını və "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqləndiyini xatırladan Şahmar Mövsümov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Şurada müəyyən edilmiş strateji prioritetlərə və verilmiş tapşırıqlara uyğun olaraq müasir qanunvericilik bazasının formalaşdırılması istiqamətində kompleks islahatların hazırlandığını dedi. Vurğuladı ki, bu, postsovet məkanında rəqəmsal ekosistemin inkişafı və tənzimlənməsi istiqamətində həyata keçirilən ən əhatəli və fundamental islahat təşəbbüsüdür.

Şahmar Mövsümov islahatın əhatə etdiyi sahələrə toxunaraq bildirdi ki, bunlar hüquqi müəyyənliyin təmini, rəqabətqabiliyyətli vergi mühitinin formalaşdırılması, innovasiyaların maliyyələşdirilməsi, elmi-tədqiqat və innovasiya təşviqləri, istedadların cəlb edilməsi, bazara çıxış imkanlarının genişləndirilməsi və kibertəhlükəsizlik sahəsində tənzimləmənin təkmilləşdirilməsidir.

Prezidentin köməkçisi bu islahatların mühüm cəhətlərindən biri kimi onların dünya təcrübəsinə əsaslandığını dedi, dəyişikliklər hazırlanarkən müxtəlif ölkələrin uğurlu modellərinin öyrənildiyini qeyd etdi.

***

Elm və təhsil naziri Emin Əmrullayev ölkədə təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər və gələcək planlar barədə Birinci vitse-prezidentə məlumat verdi. Nazir təhsil müəssisələrinin vahid internet şəbəkəsi ilə təminatı, "Rəqəmsal məktəb" layihəsi, təhsil pillələri üzrə məlumatların rəqəmsallaşması, təhsil sənədlərinin elektronlaşdırılması məsələlərinə toxundu, növbəti mərhələ olaraq tədrisin rəqəmsallaşdırılmasının nəzərdə tutulduğunu dedi.

Emin Əmrullayev, həmçinin şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı üçün məktəblərdə həyata keçirilən "Rəqəmsal bacarıqlar", "STEAM Azərbaycan" layihələrini qeyd etdi, bu istiqamətdə insan kapitalının inkişafının təmin edilməsinin də əsas prioritetlərdən biri olduğunu vurğuladı.

İclas müzakirələrlə davam etdirildi.

## Elm və təhsil naziri Vorvik Universitetinin nümayəndə heyəti ilə görüşüb

İyulun 1-də elm və təhsil naziri Emin Əmrullayev Böyük Britaniyanın Vorvik Universitetinin təmsilçisi Kalra Virinderin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş çərçivəsində Böyük Britaniyanın Vorvik Universiteti ilə mövcud əməkdaşlıq imkanları və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə fikir mübadiləsi aparılıb.



### Böyük Britaniyanın Vorvik Universiteti ilə əməkdaşlıq genişləndirilir

## Elm və təhsil naziri Saatlıda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 24 iyul tarixində Saatlı şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Saatlı, Sabirabad və İmişli sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 12 iyul (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya *+99451 206 78 48* nömrəsinə *"WhatsApp"* vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.



# Hər bir uşaq bir möcüzə, bir xəzinədir

## Azərbaycanın ümumtəhsil müəssisələrinin müəllimlərinə həsr olunmuş Xeyirxahlıq Festivalı keçirilib







Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın ümumtəhsil müəssisələrinin müəllimlərinə həsr olunmuş Xeyirxahlıq Festivalı keçirilib.

IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və “ThinkIn” təşkilatının əməkdaşlığı çərçivəsində təşkil olunan tədbirdə ölkənin 290 ümumtəhsil müəssisəsindən 1000-ə yaxın müəllim iştirak edib.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Nəbatat Bağında açıq hava formatında təşkil olunmuş festivalda Leyla Əliyeva və Alona Əliyeva da iştirak ediblər.

Leyla Əliyeva və Alona Əliyeva festival ərazisində yaradılmış müxtəlif fəaliyyət zonaları ilə tanış olub, milli zona, sənət emalatxanaları, yoqa və meditasiya sessiyaları, əl işləri yarmarkası və digər interaktiv məkanlarda iştirakçılarla səmimi söhbət edib, onlarla xatirə şəkilləri çəkdirib və məktəblilərin hazırladığı yaradıcı çıxışları izləyiblər. Onlara müxtəlif əl işlərindən ibarət hədiyyələr təqdim olunub.

Tədbirin rəsmi hissəsində çıxış edən Leyla Əliyeva festivalın hər kəsə gözəl və müsbət hisslər bəxş edəcəyinə inandığını bildirib. Leyla Əliyeva vurğulayıb ki, hər bir uşaq bir möcüzə, bir xəzinədir. Biz bunu nə qədər tez aşkar etsək, onların istedadları bir o qədər tez üzə çıxacaq. Müəllimlərin, valideynlərin və ümumilikdə böyüklərin uşaqları daha yaxşı anlamasının əhəmiyyətini qeyd edən Leyla Əliyeva mehribanlığın ən böyük xoşbəxtlik olduğunu bildirib.

Sonra Leyla Əliyeva müəllimlərə gördükləri məsuliyyətli işə görə minnətdarlığını ifadə edib.

Tədbir çərçivəsində keçirilən panel müzakirəsində ümumtəhsil müəssisələrində xeyirxahlıq, mərhəmət, qarşılıqlı hörmət və empatiya kimi dəyərlərin təşviqinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə iştirak edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Nərminə Hüseynova və ADA Universitetinin prorektoru Vəfa Kazdal bu xüsusda müəllimlərin gələcək nəsillərin və bütövlükdə cəmiyyətin inkişafında oynadığı mühüm rolu xüsusi olaraq vurğulayıblar.

Daha sonra festival çərçivəsində keçirilən “Xeyirxahlıq Marafonu”nun qaliblərinin mükafatlandırma mərasimi olub. Məktəblər arasında xeyirxahlıq mövzusunda hazırlanmış ən yaradıcı sosial media məzmunları müxtəlif nominasiyalar üzrə qiymətləndirilib, 55, 244, 83, 156, 185, 45, 277, 144, 211, 300 və 165 nömrəli məktəblər “Ən səmimi təşəkkür”, “Xeyirxah əməllər mükafatı”, “Ən yaxşı ekoloji təşəbbüs” və digər nominasiyalar üzrə qalib elan olunublar. Marafon məktəblərdə xeyirxahlıq, minnətdarlıq, yaradıcılıq və həmrəyliyin gündəlik davranış mədəniyyətinə çevrilməsini təşviq etmək məqsədilə keçirilib.

Yüksək əhvali-ruhiyyə şəraitində keçən festival geniş konsert proqramı ilə başa çatıb.

Qeyd edək ki, Xeyirxahlıq Festivalının əsas məqsədi cəmiyyətin müəllimlərə olan dərin hörmət və minnətdarlığını ifadə etmək, məktəblərdə xeyirxahlıq, qarşılıqlı hörmət və dəstəyə əsaslanan sağlam təhsil mühitini təşviq etmək, empatiya və mənəvi dəyərlər üzərində qurulan təhsil mədəniyyətinin inkişafına töhfə vermək, eləcə də xeyirxahlığın təhsil sistemində və cəmiyyətin inkişafındakı mühüm rolunu nümayiş etdirməkdən ibarət olub.

Tədbir çərçivəsində keçirilən əl işləri yarmarkasında 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi, “Birgə və Sağlam” Autizm Mərkəzi, Zəka Yolu İnkişaf Mərkəzi, “İZ Community”, “Kashalata” və digər təşkilatların nümayəndələrinin hazırladıqları məhsullar tədbir iştirakçılarına təqdim olunub.

# Leyla Əliyeva Yevlaxda məktəb binasının açılışında iştirak edib

## Emin Əmrullayev məktəbdə yaradılmış şərait və tədris imkanları barədə Leyla Əliyevaya məlumat verib





İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev Leyla Əliyevaya məktəbin tarixi, burada yaradılmış şərait və tədris imkanları barədə məlumat verib. Bildirilib ki, 2024-cü ilin yanvarında köhnə inzibati bina sökülüb və yerində yeni məktəb binasının tikintisinə başlanılıb. Yeni məktəb binası 528 şagird yerlikdir. Burada müasir standartlara uyğun zəruri tədris şəraiti yaradılıb.

Leyla Əliyeva məktəbin kitabxanası, informatika, biologiya və kimya kabinetləri, texnologiya, məktəb hazırlıq qrupu otaqları, yeməkxana və idman zalında yaradılmış şəraitlə yaxından tanış olub.

Yeni məktəb binasında yaradılmış müasir tədris infrastrukturu şagirdlərin keyfiyyətli təhsil almasına, onların bilik və bacarıqlarının inkişafına, həmçinin müəllimlərin fəaliyyətinin daha səmərəli təşkilinə imkan verəcək.

Məktəbin kollektivi ilə görüşən Leyla Əliyeva onlara uğurlar arzulayıb və xatirə şəkilləri çəkdirib.

# “BilBacar” müsabiqəsinin qalibləri mükafatlandırılıblar

İyulun 1-də “BilBacar” müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov “BilBacar” müsabiqəsinin əhəmiyyətindən söz açaraq bu cür müsabiqələrin kiçik yaşdan uşaqların oxuyub-anlama qabiliyyətini inkişaf etdirdiyini, texnoloji yeniliklərdən istifadə bacarıqlarını təkmilləşdirdiyini bildirib.

İntellektual yarışlarda iştirak edən məktəblilərimizin sayının hər il daha da artdığını vurğulayan nazir müavini bildirib ki, bu da yeni nəslin müasir çağırışlara ciddi hazırlaşdığını göstərir.

Firudin Qurbanov deyib ki, biliklər nəyin necə qurulduğunu anlamağa imkan verir, lakin yalnız bacarıqlar bunu reallığa çevirməyə, dəyişən şəraitə uyğunlaşmağa və həyat, eləcə də karyera üçün dəyərli bir məhsul yaratmağa kömək edir.

Qeyd edib ki, müasir dünyada bacarıqlar fasiləsiz təhsil və sürətli adaptasiya vasitəsilə formalaşır. İnformasiyanın köhnəlməsi səbəbindən dar akademik biliklər deyil, çevik bacarıqlar, rəqəmsal savadlılıq və müstəqil şəkildə həll yolları tapmaq qabiliyyəti ön plana çıxır.

Daha sonra Təhsil İnstitutunun Təhsildə Məzmun və Qiymətləndirmə Mərkəzinin direktoru İbrahim Baxışlı “BilBacar” müsabiqəsinin nəticələri ilə bağlı təqdimatla çıxış edib. O bildirib ki, bu il 3-cü və 4-cü sinifləri əhatə edən müsabiqəyə 2316 ümumi təhsil müəssisəsini təmsil edən 186521 şagird qoşulub, 404 uşaq finalçı seçilib. İki sinif üzrə 36 nəfər qalib elan olunub. Qaliblərdən 20-si oğlan, 16-sı qızdır. Ümumilikdə ölkə üzrə 3-cü və 4-cü sinif şagirdlərinin 67%-i müsabiqədə iştirak edib.







Daha sonra çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva qalibləri təbrik edərək vurğulayıb ki, bir uşaq üçün əsas məsələ müsabiqədə medal qazanmaq deyil, özünü inkişaf etdirərək hər dəfə bir addım irəli aparmaqdır. Aynur Sofiyeva hər uğurun böyük bir məsuliyyət yaratdığını da qaliblərin diqqətinə çatdırıb.

Tədbirdə regional təhsil idarələrinin “Bilbacar” müsabiqəsində aktiv fəaliyyətinə görə seçilmiş əməkdaşları, həmçinin “Yüksək nəticə” və “Fəal iştirakçılıq” nominasiyaları üzrə müəyyən olunmuş məktəblər də təltif ediliblər.

**Firudin QURBANOV**

“Biliklər nəyin necə qurulduğunu anlamağa imkan verir, lakin yalnız bacarıqlar bunu reallığa çevirməyə, dəyişən şəraitə uyğunlaşmağa və həyat, eləcə də karyera üçün dəyərli bir məhsul yaratmağa kömək edir. Bizim gənclər tənqidi təfəkkürə malik olmalıdırlar. Ən vacib bacarıq isə yaradıcı təfəkkür olacaq. Bu gün də yaradıcı təfəkkür ən vacib bacarıqlar sırasında birinci yerdədir. Bunları formalaşdırmaq üçün, təbii ki, bizim uşaqların bu intellektual oyunlarda fəal iştirak etmələri vacibdir”.

Qeyd edək ki, 2025-ci ilin noyabr ayında start verilən “BilBacar” müsabiqəsinin builki əsas məqsədi ibtidai sinif şagirdlərində oxu savadlılığını artırmaq, mətnin məzmununu anlama, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirmək, oxu fəaliyyətlərini təşviq etmək, eyni zamanda şagirdlərə kompüter əsaslı qiymətləndirmə mühitində təcrübə qazandırmaq olub.

**Mərziyyə KAZIMZADƏ**

# SƏRİŞTƏLİ MÜƏLLİM, KEYFİYYƏTLİ TƏHSİL

# 30 suala cavab verə bilməyən müəllim şagirdi öyrədə bilməz

Bu həftə təhsil sahəsində daha bir vacib hadisə ilə – ADA Universitetində keçirilən hesabat xarakterli tədbirlə yadda qalıb. Bu günlərdə gündəmdə olan sertifikatlaşdırma prosesi tədbirin əsas mövzusu olub. “Sertifikatlaşdırma: səriştəli müəllim – keyfiyyətli təhsil" mövzusunda təşkil edilən tədbirdə elm və təhsil naziri Emin Əmrullayev prosesin vacib məqamlarına aydınlıq gətirib, ictimaiyyəti daha çox maraqlandıran məsələlərə diqqət çəkib. Prosesin 2022–2026-cı illər üzrə nəticələrini geniş təqdimatla diqqətə çatdıran Emin Əmrullayev mühüm faktlar açıqlayıb. Sertifikatlaşdırma prosesinin nəticələri – iştirakçılıq, müəllimlərin əməkhaqqısına təsiri, sonrakı dövrdə yeni islahatların əhatə dairəsi ilə bağlı məlumat verib.







**Emin ƏMRULLAYEV:**

**91408 müəllimin əməkhaqqısına əlavələr edilib**

**Sertifikatlaşdırmadan keçə bilməyən 9 mindən çox müəllim işdən azad edilib**

**MİQ-də 30-dan çox bal toplayanların 99 faizi sertifikatlaşdırmadan uğurla keçib**

**25 mindən çox müəllim sertifikatlaşdırmada yüksək nəticə göstərib**

**Uğurlu nəticələri olanlar tamştatlı və saathesabı işləyən müəllim kimi çalışacaqlar**

**30 suala cavab verə bilməyən müəllim şagirdi öyrədə bilməz**

**Müəllim mərkəzli sistemdən şagird mərkəzli sistemə keçməliyik**

**Növbəti mərhələdə sertifikatlaşdırma imtahanında metodiki məsələlərə daha çox diqqət yetiriləcək.**

**Müəllimlərimiz qürurlu və peşəkar insanlardır**

**İstəmirik ki, müəllimlərimiz səhər müəllim, günorta repetitor olsunlar**

### Bütün müəllimlər sertifikatlaşdırma prosesinə cəlb olunub

Nazir bildirib ki, həyata keçirilən sistemli qiymətləndirmə nəticəsində ölkədə fəaliyyət göstərən demək olar ki, bütün müəllimlər ən azı bir dəfə sertifikatlaşdırma prosesinə cəlb olunublar. 2022–2026-cı illər ərzində təşkil olunmuş imtahanlarda ümumilikdə 104435 müəllim iştirak edib. Bununla da ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, xarici dil, biologiya, kimya, fizika, coğrafiya və informatika fənləri üzrə sertifikatlaşdırma prosesinin hər iki mərhələsi tam başa çatıb. Tarix, təsviri incəsənət, texnologiya, musiqi və fiziki tərbiyə müəllimləri üzrə isə birinci mərhələ yekunlaşıb.

### 16938 müəllim yeni fənlər üzrə sertifikatlaşdırma imtahanında

Bu il ilk dəfə olaraq yeni fənlər üzrə sertifikatlaşdırma imtahanına ümumilikdə 16 938 müəllim cəlb edilib. Nazirin diqqətə çatdırdığı statistikaya görə, fənlər üzrə göstəricilər fərqli dinamika nümayiş etdirir: imtahana qatılan 2948 texnologiya müəlliminin orta balı 45, 1689 təsviri incəsənət müəlliminin orta balı 43, 5419 fiziki tərbiyə müəlliminin orta balı 41, 1311 musiqi müəlliminin orta balı 40, 5571 tarix müəlliminin imtahan nəticəsi isə ortalama 39 bal təşkil edib.

### Maddi stimullaşdırma: 91 mindən çox müəllimin əməkhaqqısına əlavələr edilib

Emin Əmrullayev çıxışında sertifikatlaşdırma prosesinin müəllimlərin maddi rifahının gücləndirilməsində xüsusi rol oynadığını vurğulayıb. Nazirin təqdim etdiyi rəqəmlərə əsasən, imtahanlarda uğur qazanmış 91408 müəllimin əməkhaqqısına əlavələr tətbiq olunub. Belə ki, yüksək peşəkarlıq nümayiş etdirərək 51 və daha çox bal toplayan 30590 müəllimin maaşına 35 faiz, 30–50 bal aralığında nəticə göstərən 60818 müəllimin maaşına isə 10 faiz əlavə edilib.

### 2014-cü illə müqayisədə müəllimlərin orta aylıq əməkhaqqısı 4 dəfəyə qədər artıb

Həmin əlavələrdən sonra müəllimlərin orta aylıq əməkhaqqısında ciddi artım qeydə alınıb. Nazirin sözlərinə görə, 2014-cü illə müqayisədə bu gün müəllimlərin orta aylıq əməkhaqqı 4 dəfəyə qədər artaraq 1030 manata yüksəlib. Məsələn, 35 faiz əlavə alan 30590 müəllimin orta aylıq maaşı 1300 manat, 10 faiz əlavə alan 60818 müəllimin maaşı 1010 manat, hələlik sertifikatlaşdırmadan keçməyən və ya ilkin mərhələdə uğur qazanmayan 23984 müəllimin orta aylıq əməkhaqqısı isə ortalama 770 manat həcmindədir.

Nazir dərs yükünün müəllimlərin maaşına təsirini də qeyd edib. Onun sözlərinə görə, bəzi müəllimlərin həftəlik dərs yükünün aşağı olması onların orta aylıq əməkhaqqının da az olmasına gətirib çıxarır. Məsələn, hazırda 14372 müəllimin həftəlik dərs yükü cəmi 8 saatdır və onların əməkhaqqısı 500 manata qədərdir. Dərs yükü və maaşı az olan müəllimlərin sayı 12 faiz təşkil edir. Ümumi müəllim heyətinin içərisində 1500–2000 manat aralığında maaş alan 14228 müəllimin həftəlik dərs yükü orta hesabla 31 saatdır.

### 2000 manatdan çox əməkhaqqı alan müəllimlər var

Ölkə məktəblərində 2000 manatdan çox əməkhaqqı alan müəllimlər də az deyil. Ümumi heyətin 1 faizini təşkil edən həmin müəllimlərin dərs yükü 34 saatdır. Hazırda dərs yükü çox olan və 2000-dən çox maaş alan müəllimlərin sayı 1426 nəfərdir.

### MİQ-lə seçilənlər sertifikatlaşdırmada daha yüksək nəticə göstərirlər

Təhsilin keyfiyyəti müəllimin keyfiyyətindən yüksək ola bilməz. Emin Əmrullayev müəllimin illər ərzində yüksələn keyfiyyətinə və buna müəllimlərin mərkəzləşdirilmiş işə qəbulu qaydalarının təsirinə də diqqət çəkib. Hazırda tətbiq olunun şəffaf işə qəbul sisteminin səmərəliliyi rəqəmlərdən də aydın görünür. Müəllimlərin işə qəbulu (MİQ) imtahanı vasitəsilə fəaliyyətə başlayan müəllimlərin sertifikatlaşdırma nəticələrini təhlil edən nazir mühüm bir məqamı diqqətə çatdırıb. Təqdim edilən müqayisəli göstəricilər sübut edir ki, MİQ imtahanından keçərək işə qəbul olunan 23377 müəllimin sertifikatlaşdırmada orta balı 51 olduğu halda, bu imtahanda iştirak etməyən kadrların orta balı cəmi 42 olub. Həmçinin əvvəlki dövrlərdə MİQ imtahanında 30 və daha çox bal toplayan müəllimlərin builki sertifikatlaşdırmadan keçid faizi rekord həddə – 99 faizə çatıb. Həmin gənc müəllimlərin 62 faizi isə sertifikatlaşdırmada 51-dən yuxarı bal toplayaraq ən yüksək – 35 faiz əlavəni almağa haqq qazanıb.

### Tam ştatlı statusunu əldə edən müəllimlər sertifikatlaşdırma imtahanlarına bir daha cəlb olunmayacaqlar

Təhsildə həyata keçirilən islahatlardan danışarkən nazir sertifikatlaşdırmanın hər iki cəhdində keçid balını toplaya bilməyən müəllimlərlə bağlı planlara da toxunub. Onun sözlərinə görə, indiyədək 9334 müəllimin əmək müqaviləsinə qanunvericiliyin tələblərinə uyğun olaraq xitam verilib. Uğursuz nəticə göstərən müəllimlərin bir qismi gələcəkdə köməkçi müəllim kimi fəaliyyətini davam etdirə biləcək.

Nazir təhsil sisteminin gələcəyinə yönəlmiş strateji hədəfə də diqqət çəkib: ölkədə mərhələli şəkildə 20 min tamştatlı müəllim vəzifəsi yaradılacaq. Emin Əmrullayevin sözlərinə görə, indiyədək tətbiq olunan köhnə stavka sistemindən müasir tamştatlı sistemə keçid təhsildə mühüm keyfiyyət dəyişikliyi yaradacaq. Tam ştatlı statusunu əldə edən müəllimlər növbəti illərdə bir daha sertifikatlaşdırma imtahanlarına cəlb olunmayacaqlar.

### Şagird mərkəzli təhsil sistemi qurulur

Təhsildə yanaşma dəyişir. Emin Əmrullayev təhsildə müəllim mərkəzli yanaşmadan şagird mərkəzli sistemə keçiddən bəhs edərək deyib ki, sertifikatlaşdırma müəllimin öz fənnini hansı səviyyədə bildiyini ölçən vacib bir vasitə olsa da, əsas hədəf tədrisin daxili keyfiyyətini artırmaqdır: “Tədrisin keyfiyyətinin əsas göstəricisi şagirdlərin dərsi daha yaxşı və səmərəli öyrənə bilməsidir. Əgər şagird məktəbdə istənilən öyrənmə nəticəsini əldə edə bilmirsə, bu, bütövlükdə tədris metodikasının müasirləşdirilməsinə və inkişaf etdirilməsinə ehtiyac olduğunu göstərir”.

**Mərziyyə KAZIMZADƏ**

# "Pedaqoji transformasiya dövründə öyrətmə və öyrənmə"





## ADA Universitetində 9-cu Beynəlxalq Təhsil Konfransı keçirilib

İyunun 30-da ADA Universiteti və Elm və Təhsil Nazirliyinin birgə tərəfdaşlığı ilə 9-cu ADA Beynəlxalq Təhsil Konfransının rəsmi açılış mərasimi keçirilib. "Pedaqoji transformasiya dövründə öyrətmə və öyrənmə" mövzusuna həsr olunmuş builki konfransda süni intellektin yüksəlişi, milli inkişaf prioritetləri, əmək bazarının yeni tələbləri və müasir təhsil ekosisteminin qurulması kimi aktual çağırışlar ətrafında geniş müzakirələr aparılıb.

Tədbiri giriş sözü ilə açan ADA Universitetinin Strategiya və inkişaf üzrə prorektoru, konfransın Təşkilat Komitəsinin sədri Vəfa Kazdal tədbirin əsas məqsədi və hədəfləri barədə ətraflı məlumat verib.

Açılış mərasimində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək tədbir iştirakçılarını salamlayıblar.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında müasir təhsildəki strateji hədəfləri vurğulayaraq bildirib ki, ölkəmizdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində istedadlı gənclərimiz ölkəni tərk etmədən yüksək səviyyəli təhsil almaq imkanı əldə edirlər. Təhsilin iki mühüm funksiyasını qeyd edən nazir, gənclərə fundamental bilik və bacarıqların qazandırılması ilə yanaşı, onlara milli və bəşəri dəyərlərin də aşılanmasının zəruriliyini diqqətə çatdırıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev isə öz növbəsində keyfiyyətli təhsil mühitinin yaradılmasının əhəmiyyətinə toxunub. Rektor vurğulayıb ki, müəllimlər elmi tədqiqatlara başlamazdan əvvəl kifayət qədər praktiki təcrübə toplamalı və araşdırmalarını məhz öz təcrübələrinə, eləcə də mövzuya olan maraqlarına əsasən aparmalıdırlar. Keçmişdə müəllimlərin daha ağır və çətin şəraitdə işlədiklərini xatırladan rektor, hazırda təhsil sahəsində mühüm irəliləyişlərin olduğunu, lakin elm sahəsində hələ də görüləsi işlərin qaldığını bildirib.

Konfransın əsas məruzəçisi, Honkonq Təhsil Universitetinin professoru Yusuf Oldac "Generativ Süni İntellekt dövründə əhəmiyyətli biliklər istehsal edən ali təhsil sistemlərinin qurulması: inkişaf etməkdə olan dünyadan meyllər və dərslər" mövzusunda təqdimatla çıxış edərək qlobal trendləri diqqətə çatdırıb.

Proqram çərçivəsində paralel elmi sessiyalarla yanaşı, beynəlxalq və yerli ekspertlərin iştirakı ilə iki mühüm panel müzakirəsi təşkil olunub.

ADA Universitetinin professoru Azər Əbizadənin moderatorluğu ilə keçən "ADA Universitetində tədqiqat ekosisteminin yaradılması: gələcəyə doğru addımlara dair düşüncələr" mövzusundakı ilk panel müzakirəsində Kanzas Dövlət Universitetinin dosenti Səbuhi Sərdarlı, Kolumbiya Universitetinin dosenti Cavid Hüseynov, Corc Vaşinqton Universitetinin professoru Sevinc Məmmədova və ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər fakültəsinin dekanı Azər Babayev çıxış edərək rəy və təkliflərini bölüşüblər.

Professor Vəfa Kazdalın moderatorluğu ilə baş tutan "Azərbaycanda ibtidai və orta təhsilə nəsillərarası baxış: direktorların, müəllimlərin və valideynlərin səsləri" adlı ikinci paneldə isə fərqli tərəflərin gözü ilə ümumi təhsilin gələcəyi qiymətləndirilib.

Konfrans boyu "Sürətlə dəyişən mühitdə gələcəyin bacarıqları hansılardır?", "Hər kəs üçün əlçatan və sosial reallıqları nəzərə alan kurikulumlar necə qurulmalıdır?" və "Təhsil icması yeni çağırışlara necə cavab verməlidir?" kimi suallara cavab axtarılıb.

Tədbirin yekun məruzəsi ilə çıxış edən Qlobal Təhsil üzrə Ekspert, Britaniya İmperiyası Ordeni (OBE) mükafatçısı professor Ger Qraus "Sual nə olursa olsun, təhsil hər zaman cavabdır" fəlsəfəsi ilə konfransın əsas ideyasını ümumiləşdirib.

Qeyd edək ki, iki gün davam edən konfransa 8 ölkədən 235-dən çox iştirakçı – təhsil ekspertləri, dövlət rəsmiləri, müəssisə rəhbərləri, müəllimlər və tələbələr qatılıb.

# Firudin Qurbanov Milli Aviasiya Akademiyasında "Məzun günü" tədbirində iştirak edib





Milli Aviasiya Akademiyasında "Məzun günü" tədbiri keçirilib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov da tədbirdə iştirak edib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin təbrik məktubu iştirakçıların diqqətinə çatdırılıb. Məktubu Akademiyanın iqtisadi və sosial məsələlər üzrə prorektoru Gülnarə Əhmədova səsləndirib.

Mərasimdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov Azərbaycanda mülki aviasiya sahəsinin inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı layihələrdən, nəqliyyat infrastrukturunun modernləşdirilməsindən, aviasiya təhsilinin və insan kapitalının inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olmasından danışıb.

Daha sonra "Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin sədri Samir Rzayev çıxış edərək müasir aviasiya sənayesində peşəkar kadr hazırlığının əhəmiyyətini vurğulayıb, Milli Aviasiya Akademiyasının ölkənin aviasiya sisteminə yüksəkixtisaslı mütəxəssislər qazandırdığını bildirib.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Milli Məclisin deputatı Cavanşir Feyziyev də çıxış edərək məzunları əlamətdar gün münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Mərasim çərçivəsində Akademiyanın ictimai və elmi həyatında fərqlənən tələbələrə sertifikatlar təqdim olunub.

Rəsmi hissədən sonra bədii proqram təqdim olunub.

# "Rəqəmsallaşma dövründə regional universitet modeli"




## Elm və təhsil nazirinin müavini Firudin Qurbanov beynəlxalq elmi-praktik konfransın açılışında iştirak edib

İyulun 3-də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialının yaradılmasının 10 illik yubileyi münasibətilə təşkil olunan "Rəqəmsallaşma dövründə regional universitet modeli" mövzusunda beynəlxalq elmi-praktik konfransın rəsmi açılış mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Zaqatala şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Daha sonra qonaqlar konfrans çərçivəsində təşkil olunmuş sərgi ilə tanış olublar. Tədbir çərçivəsində UNEC Zaqatala filialının 10 illik fəaliyyətinə həsr edilmiş "The Driving Force of Regional Development: UNEC Zaqatala Branch" kitabının təqdimatı keçirilib.

Rəsmi açılış mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra UNEC Zaqatala filialının yaradılmasının 10 illiyinə həsr olunmuş, filialın fəaliyyət tarixini, inkişaf mərhələlərini, əldə olunan nailiyyətləri və həyata keçirilən layihələri əks etdirən videoçarx nümayiş etdirilib.

Konfransı giriş nitqi ilə açan Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxışında regional ali təhsil müəssisələrinin inkişafından, rəqəmsallaşmanın ali təhsil sistemində yaratdığı imkanlardan və UNEC Zaqatala filialının 10 il ərzində əldə etdiyi uğurlardan bəhs edib.



Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək UNEC Zaqatala filialının regionda ali təhsilin inkişafına verdiyi töhfələri yüksək qiymətləndirib, filial kollektivini 10 illik yubiley münasibətilə təbrik edib.

Nazir müavini bildirib ki, müasir dövrdə universitetlər yalnız bilik verən təhsil müəssisələri deyil, həm də innovasiya, texnoloji inkişaf və insan kapitalının formalaşmasının əsas mərkəzləridir. Onun sözlərinə görə, regional universitetlər bölgələrin sosial-iqtisadi inkişafında daha fəal rol oynamalı, əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığını təmin etməli və müasir çağırışlara çevik cavab verən ali təhsil modeli formalaşdırmalıdır.

Nazir müavini qeyd edib ki, ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün güclü nəzəri hazırlıq bacarıq əsaslı təhsillə uzlaşdırılmalı, təhsil proqramları mütəmadi yenilənərək əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır. O vurğulayıb ki, rəqəmsallaşma, süni intellekt və yaşıl iqtisadiyyat kimi prioritet istiqamətlər ali təhsil sistemində daha geniş yer tutmalıdır.

Açılış mərasimində çıxış edən digər rəsmi qonaqlar, ali təhsil müəssisələrinin rəhbərləri və elm ictimaiyyətinin nümayəndələri UNEC Zaqatala filialının regionda ali təhsilin inkişafına verdiyi töhfələri yüksək qiymətləndirərək filialın 10 illik yubileyi münasibətilə təbriklərini çatdırıblar.

UNEC Zaqatala filialının direktoru Raqif Qasımov çıxışında filialın ötən 10 il ərzində keçdiyi inkişaf yolundan, əldə olunan akademik nailiyyətlərdən, maddi-texniki bazanın gücləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi və elmi fəaliyyət istiqamətində görülən işlərdən bəhs edib. O, qarşıdakı dövrdə filialın inkişafının əsas prioritetləri barədə məlumat verib.

Qeyd edək ki, beynəlxalq elmi-praktik konfransa ümumilikdə 310 məqalə müəllifi tərəfindən müraciət daxil olub. Elmi ekspertiza və seçim prosesinin nəticələrinə əsasən 288 məqalə təqdimat üçün qəbul edilib.

Konfrans çərçivəsində "Regional universitetlərin regionların sosial-iqtisadi inkişafına təsiri" mövzusunda "dəyirmi masa" keçirilib.

Beynəlxalq elmi-praktik konfrans öz işini 4 iyul tarixində panel iclasları və beynəlxalq vökşoplarla davam etdirəcək.

# "Rəqəmsal dövrdə insanların təhsili: sülh, dəyərlər, kimlik və gələcək"





## Nazir müavini İdris İsayev Türkiyə Təhsil Texnologiyaları Zirvəsi və Sərgisində (TETZ 2026) çıxış edib

26-28 iyun tarixlərində İstanbulda keçirilən Türkiyə Təhsil Texnologiyaları Zirvəsi və Sərgisi (TETZ 2026) təhsil, texnologiya və süni intellekt sahəsində dünyanın müxtəlif ölkələrindən mütəxəssisləri bir araya gətirib.

Zirvə çərçivəsində gələcəyin bacarıqları, təhsildə süni intellekt, rəqəmsal transformasiya və beynəlxalq əməkdaşlıq mövzularında 30-a yaxın panel və müzakirə təşkil olunub. Tədbirdə 16 ölkənin təhsil nazirləri və nümayəndələri iştirak edib.

Azərbaycanı tədbirdə elm və təhsil nazirinin müavini İdris İsayev təmsil edib. Zirvə çərçivəsində elm və təhsil nazirinin müavini İdris İsayev "Rəqəmsal dövrdə insanların təhsili: sülh, dəyərlər, kimlik və gələcək" mövzusunda çıxış edib. Nazir müavini süni intellekt dövründə təhsilin qarşısında duran əsas çağırışlardan və prioritetlərdən bəhs edərək vurğulayıb ki, texnologiyalar təhsil prosesini zənginləşdirsə də, müəllimin rolunu əvəz edə bilməz. Çünki müəllim yalnız bilik ötürən deyil, həm də dəyərlər formalaşdıran, xarakter və məsuliyyətli vətəndaş yetişdirən əsas şəxsdir.

Çıxış zamanı Azərbaycanın 2025—2028-ci illər üçün Süni İntellekt Strategiyası çərçivəsində insan kapitalının inkişafı, rəqəmsal bacarıqların gücləndirilməsi və gələcək nəsillərin yeni texnoloji dövrə hazırlanması istiqamətində həyata keçirilən tədbirlər diqqətə çatdırılıb. Eyni zamanda, ölkədə təhsilin rəqəmsal transformasiyası, STEAM təhsilinin genişləndirilməsi, elektron tədris resurslarının və süni intellekt əsaslı həllərin tədris prosesinə inteqrasiyası sahəsində görülən işlər barədə məlumat verilib.

Nazir müavini qeyd edib ki, müasir məktəblər şagirdlərdə tənqidi düşünmə, yaradıcılıq, əməkdaşlıq, problem həll etmə, rəqəmsal savadlılıq və süni intellektdən məsuliyyətli istifadə bacarıqlarını formalaşdırmalıdır. O bildirib ki, texnologiyalar iqtisadiyyatları dəyişsə də, gələcəyi formalaşdıran əsas amil keyfiyyətli təhsil və güclü insan kapitalıdır.

Qeyd edək ki, TETZ 2026-nın yekun bəyannaməsində təhsilin qlobal sülhün, qarşılıqlı anlaşmanın və beynəlxalq əməkdaşlığın gücləndirilməsində mühüm rol oynadığı vurğulanıb.

Zirvə təhsildə rəqəmsal transformasiya proseslərinin qiymətləndirilməsi, süni intellekt dəstəkli öyrənmə modellərinin müzakirəsi və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm platforma rolunu oynayıb. Eyni zamanda, təhsil texnologiyaları sahəsində ən son yeniliklərin paylaşılmasına və gələcəyə yönəlik siyasət təkliflərinin müzakirəsinə əhəmiyyətli töhfə verib.

## Qarabağ Universitetində Böyük Britaniyalı alimlərlə birgə proqram hazırlanıb

Qarabağ Universitetində bu ildən etibarən ilk dəfə tələbə qəbulu həyata keçiriləcək "Biznesin idarə edilməsi ixtisası" Böyük Britaniyanın Ekseter Universitetinin alimləri ilə əməkdaşlıq çərçivəsində hazırlanıb.

Bu barədə "Azərbaycan müəllimi"nə Qarabağ Universitetindən məlumat verilib.

Bu əməkdaşlıq çərçivəsində Ekseter Universitetinin alimləri Qarabağ Universitetinin Biznes və İqtisadiyyat Fakültəsinin akademik heyəti ilə birgə çalışaraq beynəlxalq standartlara uyğun müasir proqramın hazırlanmasında iştirak ediblər.

Proqramın yekunlaşdırılması məqsədilə Ekseter Universitetinin nümayəndələri Qarabağ Universitetinə səfər edərək fakültənin akademik heyəti ilə birgə iş sessiyaları və müzakirələr aparıblar.

İlk dəfə tədris olunacaq proqram biznes idarəçiliyi sahəsində fundamental biliklərlə yanaşı, data analitikası, süni intellekt və rəqəmsal transformasiya kimi müasir istiqamətləri də əhatə edir.

Bu əməkdaşlıq Qarabağ Universitetinin beynəlxalq tərəfdaşlıqlarını genişləndirmək, tədrisin keyfiyyətini daha da yüksəltmək və tələbələrə qlobal standartlara uyğun təhsil təqdim etmək istiqamətində atdığı mühüm addımlardan biridir.

# "Geriyə baxanda peşman deyiləm"

## Təhsilə həsr olunan bir ömür

*Bir insanın ömür yolu təkcə işlədiyi illərlə deyil, eyni zamanda peşəkar fəaliyyəti ilə dəyərləndirilir. Elə şəxslər var ki, onilliklər ərzində öz peşəsinə sədaqəti, məsuliyyəti və zəhməti ilə çalışdığı qurumun tarixinin ayrılmaz hissəsinə çevrilirlər. Ömrünün 57 ilini Azərbaycan təhsil sisteminin inkişafına həsr etmiş Gülnaz Arıxovanın keçdiyi yol da məhz belə nümunələrdəndir. O, uzun illər ərzində iqtisadiyyat, planlaşdırma, maliyyə və statistika sahələrində səmərəli fəaliyyət göstərərək təhsil sisteminin idarə olunması və inkişafına mühüm töhfələr verib.*

*İyunun 29-da Elm və Təhsil Nazirliyinin nəzdində "Təhsil sisteminin inkişafı və proqnozlaşdırılması problemləri üzrə" elmi-tədqiqat laboratoriyasının təhsilin iqtisadiyyatı qrupunun mütəxəssisi Gülnaz Arıxova uzunmüddətli səmərəli fəaliyyətinə görə elm və təhsil nazirinin əmri ilə "Fəxri fərman"la təltif olunub.*

*Elm və Təhsil Nazirliyində keçirilən mükafatlandırma mərasimində nazirliyin Aparat rəhbəri Mətin Kərimli Gülnaz Arıxovanın 57 illik fəaliyyətinə nəzər salaraq təhsil sisteminin inkişafına verdiyi töhfələrdən, dövlət qulluğunda keçdiyi şərəfli əmək yolundan və peşəkarlığından bəhs edib. Qeyd olunub ki, nazirliyin çoxillik təcrübəyə malik əməkdaşı uzun illər ərzində təhsil sahəsində iqtisadiyyat, maliyyə, statistika və planlaşdırma istiqamətlərində məsuliyyətlə çalışaraq özünü peşəkar mütəxəssis, etibarlı dövlət qulluqçusu kimi təsdiqləyib, yüksək işgüzarlığı ilə həmkarlarının böyük hörmətini qazanıb. Aparat rəhbəri qeyd edib ki, Gülnaz Arıxovanın 57 illik fasiləsiz əmək fəaliyyəti peşəsinə, dövlətə və təhsil sahəsinə sədaqətin ən gözəl nümunələrindən biridir: "57 il eyni dövlət qurumunda Azərbaycan təhsilinə xidmət etmək artıq peşə fəaliyyəti deyil, eyni zamanda sədaqət tarixidir".*

*Sonra mərasimdə iştirak edən əməkdaşlar, Gülnaz xanımın həmkarları onun peşəkarlığından söz açıblar. Çıxışlarda bildirilib ki, Gülnaz Arıxova təhsilin iqtisadiyyatı, maliyyə planlaşdırılması və statistika sahələrində zəngin təcrübəyə malik mütəxəssis olmaqla yanaşı, gənc əməkdaşlara hər zaman dəstək göstərən, bilik və təcrübəsini bölüşən nümunəvi dövlət qulluqçusudur.*

*Çıxışlarda həmçinin qeyd olunub ki, Gülnaz Arıxova təkcə peşəkar iqtisadçı deyil, həm də təhsil sisteminin müxtəlif inkişaf mərhələlərinin canlı şahidi və iştirakçısıdır. Onun təhsilin iqtisadiyyatı, maliyyə planlaşdırılması və statistika sahəsində topladığı zəngin təcrübə bu gün də öz aktuallığını qoruyur. Bildirilib ki, dövlət qulluğuna sədaqətlə xidmət edən Gülnaz xanım öz vicdanlı əməyi, zəhmətkeşliyi və yüksək insani keyfiyyətləri ilə gənc əməkdaşlar üçün örnəkdir.*

*Gülnaz Arıxova çıxış üçün söz alaraq ona göstərilən yüksək diqqət və etimada görə elm və təhsil naziri Emin Əmrullayevə, nazirliyin kollektivinə təşəkkürünü bildirib, ömrünün ən dəyərli illərini Azərbaycan təhsilinə həsr etməkdən hər zaman qürur duyduğunu qeyd edib.*

*Sonda nazirliyin Aparat rəhbəri Mətin Kərimli Gülnaz Arıxovaya Elm və Təhsil Nazirliyinin "Fəxri fərmanı"nı təqdim edərək elm və təhsil nazirinin ən xoş arzularını çatdırıb.*

*Səslənən fikirlər sanki mərasimin ümumi ovqatını belə ifadə edirdi: "Belə insanların qazandığı ən böyük mükafat illər boyu qazandıqları hörmət və etimaddır".*







### Mükafatlandırmanın arxasında dayanan ömür

Hər bir mükafatın görünən tərəfi bir mərasim, təltif və alqışdır. Görünməyən tərəfində isə illərin zəhməti, peşəyə sədaqət, insanlara xidmət və ömürboyu qazanılmış etibar dayanır. Gülnaz Arıxovaya təqdim olunan "Fəxri fərman" da məhz belə bir həyat yolunun qiymətidir.

Təltifetmə mərasimindən sonra qərara gəldik ki, "Azərbaycan müəllimi" olaraq 57 illik ömür və fəaliyyət tarixçəsini ən səmimi şəkildə elə onun öz dilindən dinləyək.

### "İşə maarif naziri Mehdi Mehdizadənin əmri ilə qəbul olunmuşam"

Gülnaz xanımın 75 illik ömür kitabının səhifələrini birlikdə vərəqləyək. 1951-ci ildə Qazax rayonunda doğulan Gülnaz Arıxova elə orta təhsilini də orada alıb: "1968-ci ildə Yenigün kənd tam orta məktəbini bitirmişəm. Həmin il Azərbaycan Politexnik İnstitutunun (İndiki Azərbaycan Texniki Universiteti) Texnologiya fakültəsinin axşam şöbəsinə qəbul olundum. Həyatımın ən böyük dönüş nöqtəsi 18 yaşım tamam olan günün səhərisi o zamankı Maarif Nazirliyində işə başlamağım oldu.

İşə pedaqogika elminin görkəmli nümayəndəsi, tanınmış ictimai xadim, professor, Azərbaycan SSR-nin xalq maarif naziri Mehdi Mehdizadənin əmri ilə qəbul olunmuşam. Bunu həyatımın ən böyük xoşbəxtliklərindən biri sayıram. Mehdi Mehdizadə ilə işləmək, onu yaxından tanımaq, tövsiyələrini dinləmək mənim üçün böyük məktəb oldu".

### "İş yerim mənim üçün sadəcə çalışdığım məkan olmayıb"

Həmsöhbətimiz qeyd edir ki, elə həmin gündən taleyini bu qurumla bağlayıb. "İlk iş yeri nazirliyin Təsərrüfat şöbəsi olub: "Gənc idim, öyrənməyə böyük həvəsim vardı. İşimi sevirdim. Elə buna görə də mənə göstərilən etimadı doğrultmağa çalışırdım", - deyir Gülnaz xanım.

Onun sözlərinə görə, illər keçdikcə məsuliyyəti də artırdı. Sonralar bir müddət həmin şöbənin müdiri olub: "1978-ci ildə nazirlikdə Dərslik şöbəsi yaradıldı. Və mən həmin şöbənin ilk əməkdaşlarından biri olaraq iqtisadçı kimi fəaliyyət göstərdim".

1988-ci ildə nazirlikdə gedən struktur dəyişiklikləri onun fəaliyyətinə öz müsbət təsirini göstərib. Belə ki, o, nazirliyin Maliyyə-iqtisad şöbəsində iqtisadçı kimi işləməyə başlayır. Təhsilin iqtisadiyyatı, maliyyə planlaşdırılması və statistika sahəsi onun əsas fəaliyyət istiqaməti olur: "Düzünü desəm, 57 ilin necə keçdiyini hiss etmədim. Çünki işimi sevirəm. Hər gün nazirliyə eyni həvəslə, eyni ruh yüksəkliyi ilə gəlirəm. Bura mənim üçün sadəcə çalışdığım məkan olmayıb. Elm və Təhsil Nazirliyi mənim özümü təsdiqlədiyim doğma iş yerimdir", - deyə Gülnaz xanım səmimi olaraq etiraf edir.

### "Mənim üçün ən böyük qazanc hörmət, etibar və insanların sevgisidir"

Gülnaz Arıxova ilə söhbətimiz zamanı söyləyir ki, ömrünün ən gözəl illəri Azərbaycan təhsilinin necə inkişaf etdiyini görmək və bu prosesin tam içində olmaqla keçib. Söhbət əsnasında bir anlıq xəyala dalır. Gözlərində qürur, danışığında isə təvazökarlıq sezilir: "İnsan gənc olanda elə bilir ki, qarşıda çox uzun yol var. Sonra bir gün dayanıb geriyə baxırsan və anlayırsan ki, illər necə də sürətlə ötüb. Mən də geriyə baxanda heç nəyə görə peşman deyiləm, yalnız minnətdarlıq hissi keçirirəm. Əksinə, şükür edirəm ki, ömrümün ən gözəl illərini Azərbaycan təhsilinə xidmət etməyə həsr etmişəm".

O deyir ki, işlədiyi illər ərzində çoxlu sayda həmkarlar qazanıb, müxtəlif nəsillərin formalaşmasına şahidlik edib, uğurlar əldə edib: "İnsan ömründə hər şey olur. Çətin günlər də, sevincli anlar da. Amma vicdanla işləyəndə heç nədən çəkinmirsən. Mən həmişə çalışmışam ki, işimi dürüst görüm, insanlara hörmətlə yanaşım. Elə bilirəm ki, insanın ən böyük sərvəti də məhz budur. Mənim üçün ən böyük qazanc hörmət, etibar və insanların sevgisidir".

### "Gənclərə demək istəyirəm ki..."

Yaşadığı 75 illik ömrünün 57 illik iş təcrübəsini bir cümlədə ifadə etmək çətin olsa da, Gülnaz xanım gənclərə ünvanladığı fikirlərini sadə, amma dərin mənalarla çatdırır: "Gənclərə demək istəyirəm ki, hansı peşəni seçirlərsə seçsinlər, onu ürəklə sevsinlər. İşini sevən insan heç vaxt yorulmur. Vicdanla işləmək, daim öyrənmək və dövlətə sədaqətlə xidmət etmək insanı həm peşəkar, həm də şəxsiyyət kimi ucaldır".

**Samirə KƏRİMOVA**
**FOTO: Kənan Qafarov**

# "Bu qalibiyyət mənim üçün çox dəyərlidir"




## Olimpiadanın qızıl medalçısı

Məktəblilərin Respublika İdman Olimpiadasında uğur qazanan gənclərdən biri də Rüfət Həsənlidir. 2010-cu ildə Mingəçevir şəhərində anadan olan Rüfət 2017-ci ildən etibarən cüdo idman növü ilə peşəkar şəkildə məşğul olur. Bir çox yarışlarda yüksək nəticələr göstərən idmançı, növbəti parlaq qələbəsini olimpiadada qazanıb.

“Azərbaycan müəllimi” Rüfət Həsənli ilə həmsöhbət olub.

Mingəçevirdə yerləşən Kəlbəcər rayon 123 nömrəli tam orta ümumtəhsil məktəbində təhsil alan idmançı dərslərini də əla qiymətlərlə oxuyur. İdmanla yanaşı təhsilini uğurla davam etdirir.

“Məktəblilərin Respublika İdman Olimpiadasına cüdo növü üzrə 66 kq çəki dərəcəsində qatılmışdım. Bütün rəqiblərimə tam üstünlüklə qalib gələrək qızıl medala layiq görüldüm və çempion oldum. Bu qalibiyyət mənim üçün çox dəyərlidir. Əsas hədəflərimdən biri Polis Akademiyasına qəbul olmaq, gələcəkdə ölkəmizi beynəlxalq arenalarda təmsil edərək peşəkar idman karyerasını uğurla davam etdirməkdir”.

**Rəmziyyə HƏSƏNOVA,**
*Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi*


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6868 **Sifariş:** 861

**Məsul növbətçi:** S.Kərimova


**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

# Mingəçevir Dövlət Universiteti

## Menecment kafedrasının müdiri vəzifəsi üzrə müsabiqə

## ELAN EDİR:

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığı, elmi dərəcəsi və elmi adı, ən azı 5 il elmi-pedaqoji təcrübəsi olan namizədlər iştirak edə bilərlər.

**Əmək funksiyası:**

- Təhsilalma formaları üzrə mühazirələrin, laborator, praktik seminar məşğələlərinin və s. təşkili və keçirilməsi üzrə kafedra üzvlərinə rəhbərlik etmək;
- Yekun dövlət attestasiyasına, ixtisas üzrə təcrübəyə, kurs və buraxılış işləri layihələrinə, tələbələrin sərbəst işlərinə, imtahanların keçirilməsinə, tələbələr arasında tərbiyəvi işlərin təşkilinə rəhbərlik etmək;
- Professor-müəllim heyətinin dərs yükünün bölgüsünü aparmaq, onun müzakirəsi və təsdiqini təşkil etmək;
- Professor-müəllim heyətinin fərdi və təqvim planlarını təsdiq etmək;
- Təsdiq olunan fənlər üzrə tədris proqramlarının işlənib hazırlanmasına rəhbərlik etmək və onları təsdiq etdirmək;
- Bu proqramlara uyğun dərsliklərin, tədris metodiki və tədris vəsaitlərinin hazırlanmasını təmin etmək;
- Təsdiq olunmuş plana uyğun olaraq professor-müəllim heyətinin və tələbələrin elmi-tədqiqat işləri aparmasına şərait yaratmaq, bitmiş elmi-tədqiqat işlərinin müzakirəsini keçirmək və onların nəticələrinin istehsalata tətbiqinə nəzarət etmək.

**Bilməlidir:**

- “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikasının qanunlarını;
- Elm və təhsil sahələrinə aid Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin aidiyyəti qərar və sərəncamlarını;
- Azərbaycan Respublikasının təhsil sahəsi üzrə mərkəzi icra hakimiyyəti orqanının aidiyyəti qərar, sərəncam və əmrlərini; sosial-iqtisadi inkişaf tələblərinə uyğun bilik və bacarığa malik mütəxəssis yetişdirməsinə olan tələbləri;
- Ali təhsil üzrə təsdiq edilən dövlət təhsil standartlarını və proqramlarını;
- Aparılan elmi-tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasını, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkil olunmasını;
- Ali məktəb pedaqogikasını və psixologiyasını, tədris planlarının və proqramlarının tərtibini;
- Tədris olunan hər bir fənn üzrə proqramların, laborant-texniki heyətinin və professor-müəllim heyətinin görəcəyi auditoriyadan kənar işlərin məzmununu; - Müəllim və tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik məsələlərini;
- Təhsil müəssisələrinin qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılmasını;
- Tədris prosesində təlimin texniki vasitələrindən istifadəni;
- Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarını.

Namizədin aktiv elmi-tədqiqat fəaliyyəti ilə məşğul olması, yüksək indeksli beynəlxalq və yerli elmi jurnallarda məqalələrinin dərc edilməsi üstünlük kimi qiymətləndirilir.

**Tələb olunan sənədlər:**

- Rektorun adına yazılmış ərizə (universitet əməkdaşları üçün, universitetdən kənar əməkdaşlar üçün);
- Şəxsiyyət vəsiqəsinin surəti;
- Kadrların şəxsi qeydiyyat vərəqəsi;
- Tərcümeyi-hal;
- Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti;
- Dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı

**Qeyd:** Tələblərə cavab verən namizədlər tələb olunan sənədləri 31.07.2026-cı il tarixinədək “Menecment kafedrasının müdiri vəzifəsi üzrə elan edilmiş müsabiqədə iştirak” yazmaqla *vacancy@mdu.edu.az* elektron poçt ünvanına göndərə bilərlər.

**REKTORLUQ**

# Etibarsız sayılır

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 1999-cu ildə Kazımova Leyla Tamerlan qızına verilmiş AB-II-047050 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 32 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Vəlizadə Ceyhun Füzuli oğluna verilmiş A-408485 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Piriyev Vəfadar Namiq oğluna verilmiş B-099876 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 41 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Həsənov Pərviz Babasən oğluna verilmiş A-253882 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Soyuqbulaq qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Osmanov Kamandar Mahal oğluna verilmiş A-695005 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 11 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Əliyev Orxan Natiq oğluna verilmiş A-476183 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1989-cu ildə Yusubova Fatma Qiyas qızına verilmiş TB-I-089469 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2005-ci ildə İbrahimova Şəlalə Baqi qızına verilmiş BB-II-027257 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2023-cü ildə Güləliyev Səməd Araz oğluna verilmiş C-189907 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2003-cü ildə Xıdırova Nətavan Zakir qızına verilmiş AB-II-091708 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Köhnəbazar kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Rəhimov Tərlan Akif oğluna verilmiş A-627291 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Əliyeva Samirə Tofiq qızına verilmiş A-494098 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Muradov Vüsal Vüqar oğluna verilmiş A-462521 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Politexnik Texnikumu** tərəfindən 1999-cu ildə Əhmədov Bəhruz Eldar oğluna verilmiş AB-II-032023 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Babayev Ağamirzə Anar oğluna verilmiş A-229424 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2007-ci ildə Məmmədova Lalə Əflatun qızına verilmiş B-100877 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Həsənabad qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Məmmədova Gülxanım Ədalət qızına verilmiş A-193705 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 6 nömrəli məktəb-liseyi 2009-cu ildə bitirmiş Əzimova Səidə Feyruz qızına verilmiş 129952 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azəbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2021-ci ildə Quliyev Eldar Sahib oğluna verilmiş C-100256 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2024-cü ildə İsmayılov Nihad İlqar oğluna verilmiş C-232676 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2023-cü ildə Binnətəliyev Pərvin Samiq oğluna verilmiş C-185010 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2015-ci ildə Həsənov Rəşad Rza oğluna verilmiş A-056409 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Novruzov Orxan İlham oğluna verilmiş A-643372 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfiini 2022-ci ildə bitirmiş Hüseynzadə Əli Zaur oğluna verilmiş C-592522 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qızılağac kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Mirzəyeva Nəzakət Əzim qızına verilmiş A-686443 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Yeyənkənd kənd tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Teymurlu Əsmər İmaməddin qızına verilmiş E-096104 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər qəsəbə Z.Abbasov adına tam orta ümumtəhsil məktəbin VIII sinfini 1977-ci ildə bitirmiş Musayeva (Qurbanova) Şərafət Telman qızına verilmiş 642638 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Nəsibova (Rasulova) Sevinc Üzeyir qızına verilmiş B-143967 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Rasulova Leyla Üzeyir qızına verilmiş B-278899 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Şəki kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Rzayev İlkin Qafar oğluna verilmiş A-021558 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı Peşə Liseyi** tərəfindən 2024-cü ildə Muradova Zöhrə Elxan qızına verilmiş A-187104 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** Nizami adına 1 nömrəli Humanitar və Təbiət fənləri təmayüllü məktəb-liseyi 2005-ci ildə bitirmiş Mürşüdova (Əliyeva) Günay Zakir qızına verilmiş 168475 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Ələkbərov Eltac Elşən oğluna verilmiş A-131199 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**74 nömrəli Texniki Peşə Məktəbi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1986-cı ildə Yusupov Elqar Şeydayeviçə verilmiş 607097 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Həsənli Həsən Süleyman oğluna verilmiş E-508732 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Kamranov Samir Vüqar oğluna verilmiş A-171027 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Rəsullu kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Talıbova Günel Zakir qızına verilmiş A-668350 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kolleci** tərəfindən 2006-cı ildə Qafarova (Xəlilova) Şəfa Ələkbər qızına verilmiş BB-II-033646 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Baydarlı kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş İsmayılova (Nəsrullayeva) Günay Məmməd qızına verilmiş B-251737 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 1996-cı ildə Rəsulov Natiq Firudin oğluna verilmiş TB-I-095089 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Hüseynov Həsən Elmar oğluna verilmiş E-207373 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Təvəkkülova (Rəfi) Məryəm Ağarəfi qızına verilmiş A3-555747 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 111 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Musayev Məhəmməd İlham oğluna verilmiş E-365306 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 253 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Cəfərova Nigar Kamran qızına verilmiş B-181162 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Paşayeva Fatimə Müslüm qızına verilmiş C-759499 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Paşayeva Fatimə Müslüm qızına verilmiş E-803072 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Bənövşələr kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova Aygün Maxsud qızına verilmiş B-425708 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2023-cü ildə Məcnunov Nurlan Xəyyam oğluna verilmiş C-197256 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan müəllimi” qəzetinin kollektivi iş yoldaşları Ramiz Şıxəliyevə atası

**ƏLƏKBƏR ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.